XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyini, onun öz xalqı qarşısında xilaskarlıq missiyasını öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, gələcəyini, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını, milli mədəniyyətimizi öyrənir.

Ümummilli lider Heydər Əliyevin möhtəşəm ideyaları Azərbaycanın dayanıqlı inkişafının özülüdür

Ulu öndər Heydər Əliyev fenomeni respublikaya rəhbərliyi dövründə möhkəm təməllərə əsaslanaraq fundamental dövlətçilik ənənələri formalaşmış, milli müstəqilliyimiz əbədiləşmişdir. O, ölkəmizi bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmış, gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır.

Bu dahi insanın ümummilli lider obrazı, tarixi fəlakət məqamında xilaskarlıq missiyası, ilk növbədə, onun şəxsi keyfiyyətlərində özünü təcəssüm etdirir. Ulu öndərin şəxsi keyfiyyətlərinin prinsipiallıq, qətiyyətlilik və siyasi iradə komponentləri onun üzərinə götürdüyü tarixi missiyanın uğurunu zərurətə çevirən başlıca amil kimi nəzərdən keçirilir. Ümummilli liderin siyasi kursu Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda demokratik cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici-siyasət problemlərinin həlli, milli-mənəvi dəyərlərin inkişafı istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Tarixin konkret məqamında ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davam etdirilməsininin labüdlüyünü şərtləndirən amillər Azərbaycanın dövlətçilik maraqlarının həyata keçirilməsinə yönəlməsindən ibarət olmuşdur. Belə bir zamanda Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun, milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması zərurəti həmin konsepsiyanın uğurlarını öz həyatında yaşayan Azərbaycan xalqının sosial sifarişi kimi ortaya çıxmışdır. Azərbaycanda müstəqil dövlətçilik ənənələrini formalaşdıran Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidməti də məhz bundan ibarətdir ki, ümummilli liderimiz müəllifi olduğu ənənələrin davamlılığını təmin etmiş, dərin zəkası hesabına respublikamızın gələcək uğurlarına təminat yaratmışdır.

Azərbaycan üçün strateji əhəmiyyət daşıyan bu kursun davam etdirilməsi istəyinin cəmiyyətdə ciddi sosial sifarişə çevrilməsi isə, ilk növbədə, ulu öndərimizin öz siyasətində hər bir fərdin maraq və mənafelərinin incəliklə nəzərə alınmasından irəli gəlmişdir. Yalnız ümummilli liderimiz Heydər Əliyev kimi böyük dühanın ailəsində yetkinləşən, zəngin dövlətçilik məktəbi keçən, müasir bilik və təcrübəyə yiyələnən kamil şəxsiyyət onun layiqli siyasi və mənəvi varisi olmaq iddiasına düşə və bunun üçün cəmiyyətdən dəstək ala bilərdi.

Təsadüfi deyildir ki, ulu öndərimiz Heydər Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına tarixi müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmiş, bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını ifadə etmişdir: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Son on səkkiz ilin gerçəkləri əminliklə söyləməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin ideyaları əsasında ölkəni irəli aparıb sivil ölkələr səviyyəsinə çatdırmaq məqsədi daşıyan strateji inkişaf kursu cənab İlham Əliyev tərəfindən məharətlə və böyük uğurla davam etdirilmişdir.

Cənab İlham Əliyev hələ dövlət başçısı seçilməzdən əvvəl çox gözəl bilirdi ki, ölkəni prezident səviyyəsində idarə etmək üçün, hər şeydən əvvəl, yüksək dövlət idarəçilik təcrübəsinə malik olmaq lazımdır. Məhz o, dövlət başçısı olmazdan əvvəl çox mühüm vəzifələrdə – MOK-un prezidenti, ARDNŞ-in vitse-prezidenti, Milli Məclisin üzvü kimi AŞPA-da ölkəmizin nümayəndə heyətinin rəhbəri və nəhayət Azərbaycan Respublikasının Baş naziri kimi fəaliyyət göstərmiş, böyük idarəçilik səriştəsi əldə etmişdir.

Dövlət başçısı kimi də cənab İlham Əliyev ona bəslənilən ümidləri doğrultmuş, özünü qətiyyətli və praqmatik siyasətçi kimi təsdiqləmiş, yüksək intellekti, işgüzarlığı, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz qazanmışdır. Prezident İlham Əliyev müasir dünyanın qloballaşma və yeni geosiyasi reallıqlarından irəli gələn siyasi mənzərəsini qiymətləndirməyi bacaran dövlət xadimi kimi özünü təsdiq etmişdir.

Dünyanın görkəmli siyasətçiləri, ictimai xadimləri, elm və mədəniyyət adamları, tanınmış dövlət nümayəndələri cənab İlham Əliyevin fəaliyyətini izləyir və onu çox yüksək dəyərləndirirlər. ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq müşaviri, politoloq Zbiqnev Bjezinski İlham Əliyevin liderlik keyfiyyətlərindən bəhs edərək demişdir: "Mən onu on ildən artıq bir müddətdir ki, tanıyıram. Bu müddət ərzində onun prezident vəzifəsinə kimi yüksələ bilmək qabiliyyəti mənə yaxşı təəssürat bağışlayır. O, enerjili, ağıllı bir gənc idi. İndi isə o, özünə inamlı, ciddi dövlət adamıdır və Avropanın həmin hissəsində öz mühüm rolu və konstruktiv mövqeyi ilə seçilir". Brenda Şaffer isə söyləmişdi: "Xalqınıza sadiqliyiniz, yüksək təhsil və bilik səviyyəniz, idarəçilik qabiliyyətiniz kifayət qədər bəllidir və mən əminəm ki, siz Azərbaycanı daha böyük tərəqqiyə və təhlükəsizliyə doğru aparacaqsınız. Siz peşəkarcasına rəhbərlik etmək qabiliyyətinizi müxtəlif forumlarda nümayiş etdirirsiniz".

Yeni tipli syasətçi İlham Əliyevi Azərbaycan üçün şans adlandıran respublikaçı konqresmen Kurt Yeldon yazırdı: "Fikirlərini bu qədər aydın ifadə edən milli liderə rast gəlməmişdim. Yüksək təhsilli İlham Əliyev uzaqgörən dövlət xadimidir. O, ölkənin ən çətin problemləri barədə açıq danışır və bunları həll etmək qərarında qətidir". "İlham Əliyev siyasət, iqtisadiyyat, geosiyasət və Xəzər nefti barədə eyni kompetentlə danışır. O, heç vaxt sualdan yayınmır, ikibaşlı cavab vermir. Əvvəl müsahibini öz duru, təmiz, səmimi təbəssümü ilə tərksilah edir, sonra isə yüzdə yüz sərrast, dəqiq cavab gəlir" – bu sözlər isə Rusiya siyasətçisi Vsevolod Boqdanova məxsusdur.

Tanınmış həmyerlimiz fəxrlə Mixail Qusman bildirmişdir: "İlham Əliyev siyasət səhnəsində yetkin fiqur olmağı bacardı. Siyasətçi üçün ən böyük məsələ siyasi məktəb keçməkdir. O, XX və XXI əsrlərin ən nüfuzlu və böyük siyasi məktəbini– Heydər Əliyev məktəbini keçmişdir. Heç bir ata öz oğluna pis tale arzulamaz. Heydər Əliyev İlhamı böyük siyasətə gətirməklə bir ata və müdrik siyasətçi kimi hiss edirdi ki, İlham bu missiyanın öhdəsindən gələcək. Heydər Əliyev deyirdi ki, onda istedad görürəm, onda genetik kodlar var".

Ölkə Prezidenti İlham Əliyevin özü isə bildirmişdir: "Mənim siyasətim ondan ibarətdir ki, əməli-praktiki işlərlə məşğulam. Azərbaycana xarici investisiyalar cəlb etməklə, yeni iş yerlərinin açılması ilə məşğulam. Mənim aləmimdə siyasət belə olmalıdır. Yəni siyasət hansısa konkret nəticə ilə yekunlaşmalıdır... Əsl siyasət – konkret, real iş görməkdən ibarətdir".

Türk xalqlarının böyük oğlu, dünya şöhrətli yazıçı Çingiz Aytmatov da inamla demişdi: "Bu gün İlham Heydər oğlu Əliyev öz xalqı, ölkəsi qarşısında üzərinə götürdüyü çox şərəfli, şərəfli olduğu qədər də ağır vəzifənin öhdəsindən bacarıqla gəlir. Atasının müəyyən etdiyi və özünün son dərəcə praqmatik düşüncə, idaretmə məharəti, liderlik istedadı ilə sahib durduğu siyasi kursu bacarıqla davam etdirir". Anotoli Raxanskinin mülahizəsi də maraqlıdır: "İlham Əliyev kimi çox az prezident tapılar ki, ali dövlət vəzifəsi Avropa qitəsində böyük razılıqla qarşılansın. İlham Əliyevi Avropada ən tanınmış prezidentlərdən biri saymışlar. O, həm də gözəl diplomat, danışıqlarda çox mahir ustadır".

Yuxarıda qeyd olunun və bu qəbildən olan çox sayda fikir, mülahizə və qənaət bir daha onu göstərir ki, İlham Əliyevin gendən gələn istedadı ilə yanaşı, həyatda, mühitdə qazandığı nadir idarəetmə keyfiyyətləri onun praqmatik, modern siyasətçi olmasını təsdiq edir. İlham Əliyevin prezidentlik dövrü təhlil edildikdə bütün bunlar qabarıqlığı ilə özünü göstərir, Heydər Əliyev ideyalarına, siyasi kursuna sadiqliyini təsdiq edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun bir sıra aspektlərinə diqqət yetirməklə dövlətçiliyin inkişafına, milli maraqların müdafiəsinə, xalqın sosial rifahının yaxşılaşmasına, iqtisadiyyatın inkişaf etdirilməsinə nə kimi töhfələr verdiyini görmək olar. İlk növbədə, ölkə rəhbəri İlham Əliyev ulu öndərin müəllifi olduğu yeni neft strategiyasını uğurla davam etdirdi. Strateji neft və qaz kəmərlərinin inşasının başa çatdırılması ilə cənab İlham Əliyev Azərbaycanın bölgədəki lider mövqeyini daha da möhkəmləndirdi, regionun digər dövlətlərindən fərqli olaraq müstəqil xarici və iqtisadi siyasət yeritdiyini bütün dünyaya sübut etdi. Bakı–Tbilisi–Qars yeni dəmir yolu xəttinin çəkilişi isə artıq regionun lider dövləti olan Azərbaycanın xarici maddi və mənəvi dəstək olmadan iri maliyyə tutumlu layihələrin reallaşdırılmasına qadir olduğunu göstərdi.

Prinsipiallıq, zamanında sözünü demək, radikal tədbirlər görmək bacarığı dövlətin inkişafını, müxtəlif sferalarda qazanılan uğurları şərtləndirən əsas amillərdir. Heydər Əliyev kimi zəngin dövlətçilik və idarəçilik təcrübəsi olan siyasət dühasından bu cür keyfiyyətləri mənimsəyən Prezident İlham Əliyevin siyasi iradəsi Azərbaycan dövlətçiliyinin daha da qüdrətlənməsinin, ölkənin inkişafının leytmotivini təşkil edir. Bu baxımdan, şərəfli bir missiyanı çiyinləri üzərinə götürən cənab İlham Əliyev özünün yüksək keyfiyyətləri, dövlət idarəçiliyi bacarığı sayəsində bu müddət ərzində siyasi varisliyə alternativsiz lider olduğunu təsdiqləyib.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış və milli maraqları özündə tam ehtiva edən xarici siyasət kursunu prezidentlik dövründə inamla davam etdirən cənab İlham Əliyev bu doktrinanı yeni taktiki gediş və manevrlərlə zənginləşdirmişdir. Elə bunun nəticəsidir ki, son illərdə Azərbaycanın beynəlxalq müstəvidə nüfuzu daha da artıb. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv, Qoşulmama Hərəkatına ikiillik müddətə sədr seçilməsi müstəqilliyimiz tarixində qazanılan ən parlaq, ən yadda qalan qələbədir. Bu, cox böyük tarixi hadisələrdir.

Prezident İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanaraq həyata keçirdiyi xarici siyasət müstəqilliyimizin 20-ci ilində Azərbaycanın ən yeni tarixinə əbədi səhifə yazmışdı. BMT-nin 193 ölkəsindən 155-nin Azərbaycanı dəstəkləməsi ölkəmizin beynəlxalq aləmdə böyük nüfuz sahibi olmasından xəbər verirdi: "Azərbaycanın beynəlxalq nüfuzu, bizə qarşı hörmət artır, bu reallıqdır. Bu gün Azərbaycan regionda ən yüksək mövqelərə malik olan bir ölkədir" (İlham Əliyev).

Ötən illərin uğurları əminliklə deməyə imkan verir ki, Prezident İlham Əliyev xalqımızın ümidlərini tam doğrultmuş, ölkəmizin maraq və mənafelərinə cavab verən çevik, qətiyyətli qərarlar qəbul etmişdir. Böyük uğurlara imza ataraq özünü ciddi siyasətçi kimi təsdiqləmiş, yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, yenilikçi idarəçilik prinsipləri ilə cəmiyyətdə və beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəni inamla icra etməkdədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" – prinsipini irəli sürmüş Azərbaycan Prezidenti öz fəaliyyətində bunu yüksək səviyyədə yerinə yetirmiş və bunun üçün ciddi siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir.

Ölkə başçısı prezidentlik fəaliyyətinin ilk günlərindən respublikamızın sosial-iqtisadi cəhətdən sürətli və dinamik inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşırılmasına, regionların inkişafına çox böyük önəm vermişdir. Azərbaycan Prezidentinin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"kı Fərmanı ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyllərinə böyük təkan vermişdir. Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisai inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" isə Azərbaycan regionlarının tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulmasına səbəb olmuşdur.

Dövlət proqramı çərçivəsində atılmış ardıcıl addımlar indiyə qədər regionların sosial-iqtisadi tərəqqisinə mane olan köklü problemləri aradan qaldırmış, yerlərdə infrastrukturun yeniləşdirilməsinə maddi zəmin yaratmışdır. Regional inkişaf proqramı sonrakı illərdə də davam etdirilmişdir. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının əsas məqsədi isə bu sahədə həyata keçirilən siyasətin davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Ölkə başçısının mütəmadi olaraq regionlara səfərləri izsiz qalmır, onların sürətli inkişafına səbəb olur, rayonların sosial-iqtisadi inkişafı üçün əlavə maliyyə dəstəyi göstərilir.

Ölkə Prezidentinin xarici siyasətdə əldə etdiyi uğurlar daxili siyasətlə həmahəng aparılır. Dövlət büdcəsinin görünməmiş səviyyədə artması, ümumi daxili məhsulun artım tempi, işsizliyin və yoxsulluğun azaldılması, sahibkarlığa kömək, qeyri-neft sektorunun inkişafı, çadır şəhərciklərinin ləğv edilməsi, qaçqın və məcburi köçkünlər üçün yeni-yeni qəsəbələrin istifadəyə verilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl olaraq atılan addımlar əldə olunan böyük uğurlardan xəbər verir.

Son 18 ildə respublikamız nəhəng quruluculuq meydanı olmuşdur. Regionlar, Bakı şəhəri və Apşeron rayonunun kəndləri çox sürətlə qurulmuş, infrastrukturlar yaradılmış – körpülər salınmış, yollar çəkilmişdir. Şəhər və kəndlər müasirləşdirilir, abadlaşdırılır, qaz və enerji xətləri yeniləşdirilir. Bir sözlə, əhalinin normal yaşayışı üçün nə lazımdırsa, edilir. Bunlar isə ölkə Prezidentinə respublika əhalisinin məhəbbətini, inam və sevgisini, hörmət və dəstəyini qazandırır.

"Azərbaycanda yoxsul adam olmamalıdır" prinsipi cənab Ilham Əliyevin fəaliyyətində önəmli yer tutur və bu istiqamətdə əhəmiyyətli addımlar atılır. Xalqın etimadını qazanan ölkə Prezidentinin özü bunlardan bəhs edərək deyir: "Görülən bütün işlər, aparılan siyasət Azərbaycanı daha da inkişaf etdirdi, ölkəmiz daha da qüdrətləndi, gücləndi, öz mövqelərini möhkəmləndirdi, ölkəmizdə vətəndaş birliyi tam şəkildə bərqərar olundu. Xalqla iqtidar arasında münasibətlər ən yüksək səviyyədədir. Bizim bütün planlarımız, nəzərdə tutduğumuz proqramlar həyatda öz əksini tapır".

Dövlət başçısı İlham Əliyevin prezidentlik dövrü cəmiyyət həyatının bütün sahələrində uğurlu nəticələri təmin etmişdir. Ölkə rəhbərinin fəaliyyəti eyni zamanda respublikanın inkişafı baxımından strateji sahə olan elm və təhsilə qayğı nümunələri ilə də zəngindir. Bu sahələrin inkişafında mühüm mərhələ ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir. Həmin illərdə elm, təhsil, mədəniyyət çox yüksək səviyyədə inkişaf etmişdi. Çünki ölkə başçısı Azərbaycanda elmin, təhsilin, mədəniyyətin inkişaf etdirilməsini prioritet vəzifə kimi qarşıya qoymuşdu.

Prezident İlham Əliyevin elm, təhsil və mədəniyyətimizin inkişafı istiqamətində həyata keçirdiyi siyasət ulu öndərin formalaşdırdığı ənənələrin uğurlu davamıdır. Elm, təhsil və mədəniyyət sahəsində qazanılmış nailiyyətlər möhkəmləndirilmiş, onlara diqqət və qayğı artırılmış və uğurlu inkişafı təmin edilmişdir. Təsadüfi deyilir ki, ölkə Prezidenti respublikanın zəngin iqtisadi potensialının insan kapitalı ilə əvəzlənməsini son dərəcə vacib sayaraq demişdir: "İqtisadı inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik, çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir".

Son 18 ildə yüzlərlə yeni təhsil müəssisələrinin tikilməsi, əksər köhnə məktəblərin əsaslı sürətdə təmir edilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, elm və təhsilə ayrılan vəsaitin artırılması,bu sahələrdə çalışan işçilərin sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində görülən işlər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsini bir daha təsdiq edir.

Prezident İlham Əliyev xarici siyasətdə varislik prinsipini gözləyərək, bu siyasətə bir dinamizm və yeni istiqamətlər gətirmişdir. Bura dünya ölkələri ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarla qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişaf etdirilməsi, Dağlıq Qarabağ münaqişəsinin həllində qəti və prinsipial mövqe nümayiş etdirilməsi və digər məsələlər daxildir. "Dağlıq Qarabağ problemi ancaq Azərbaycanın ərazi bütövlüyü daxilində həll edilməlidir"– ölkə Prezidentinin ali hakimiyyət sükanı arxasına gəldiyi ilk gündən qəti və yekdil fikri bundan ibarət idi.

Ulu öndərin yaratdığı Azərbaycan Ordusunu Qafqazın ən böyük gücünə, dünyanın 50 mobil ordusundan birinə çevirən Prezident, Ali Baş Komandan İlham Əliyevin ötən ilin payızında düşmənin irimiqyaslı hərbi təxribatına cavab olaraq başlatdığı Vətən müharibəsi xalqımızın qələbəsi ilə başa çatdı, nəhayət, ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Ulu öndərin ən layiqli davamçısı olan dövlət başçısı ata vəsiyyətinə əməl etməklə onun yarımçıq qalmış ən böyük arzusunu da gerçəkləşdirdi. "Qarabağ Azərbaycandır!"– deyən Prezident İlham Əliyev bu hökmü cəmi 44 günə qalibiyyətli savaşla gerçəkləşdirərək 30 illik Qarabağ münaqişəsinə son qoydu.

Azərbaycan xalqının ümummilli liderinin siyasi kursunun davamçısı İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyətinin təhlili göstərir ki, ulu öndərimiz tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar ardıcıllıqla həyata keçirilmiş, zəruri hallarda dövrün tələblərinə uyğun keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir. Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti, gördüyü işlər onu deməyə əsas verir ki, o, Heydər Əliyev ideyalarının sadəcə davamçısı yox, eyni zamanda bu ideyaları XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirən və inkişaf etdirən dövlət xadimidir.

Artıq 18 ildir ki, Heydər Əliyev siyasi məktəbinin yetirməsi olan Prezident İlham Əliyev özünün yüksək keyfiyyətləri, dövlət idarəçiliyi, bacarığı sayəsində məhz ölkə üçün taleyüklü, strateji əhəmiyyətli hadisələrin müəllifinə çevrilmiş, onun ardıcıl və sistemli sürətdə həyata keçirdiyi islahatlar cəmiyyətin mənəvi yüksəlişinə və birliyinə xidmət etmişdir. Dövlət başçısının özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, ölkənin maraq və mənafeyini ümumi bir nöqtədə birləşdirmək bacarığı Azərbaycan xalqının ona hörmət və məhəbbətini qazandırmışdır. Xarici siyasi dairələrdə deyildiyi kimi: "İlham Əliyev daxili və xarici siyasətdə dəqiq koordinatlar sistemi qura bilmişdir. O, ardıcıl olaraq özünün əsas məqsədinə– Azərbaycanı inkişaf etmiş sabit iqtisadiyyata malik, ictimai münasibətlərdə demokratik prinsiplərin bərqərar olduğu müasir dövlətə çevirmək məqsədinə" (Mixail Pojivanov) nail olmuşdur.

Göründüyü kimi, İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyəti, onun dövlət idarəçiliyi prinsipləri, qəbul olunan əzəmətli və proqram xarakterli qərarlar və onların yüksək səviyyədə yerinə yetirilməsi, cəmiyyətdə hökm sürən milli birlik və həmrəylik, siyasi kursa sadiqlik, habelə verdiyi vədlərin əməli fəaliyyətə praqmatizmə söykəndiyini, reallığa adekvat olduğunu göstərmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ideyaları ölkəmizin hərtərəfli və dinamik inkişafına istiqamət verdiyi kimi, həm də bu ideyalar Azərbaycanın dayanıqlı inkişafının əsasını təşkil edir.

İsmayıl HACIYEV,
AMEA-nın Naxçıvan bölməsinin sədri,
Milli Məclisin deputatı